UOT 32
DOI: https://doi.org/10.30546/3006-0346.2025.2.86.213

# MÜASİR MƏRHƏLƏDƏ AZƏRBAYCAN RESPUBLİKASINDA DÖVLƏT GƏNCLƏR SİYASƏTİNİN İNKİŞAF ETDİRİLMƏSİ İSTİQAMƏTLƏRİ VƏ OPTİMALAŞDIRILMASI YOLLARI

**XƏLİL YUSİFLİ**
*Gəncə Dövlət Universitetinin doktorantı*
*E-mail: yusiflixalil1@gmail.com*

Məlum olduğu kimi, hər bir ölkədə gənclərlə bağlı həyata keçirilmiş dövlət siyasətinin hansı səviyyədə olmasından asılı olaraq biz həmin cəmiyyət haqqında ümumi təsəvvürə sahib oluruq. Bu baxımdan məhz gənclər xüsusi sosial-demoqrafik qrup kimi ölkənin gələcək tərəqqisində mühüm rol oynayırlar. Gənclərin inkişafı isə dövlətin apardığı siyasətdən asılıdır. Bir çox ölkələrdə bu siyasət dövlət gənclər siyasəti adlanır. 2014-cü ilin aprelinə olan məlumata görə, 198 ölkədən 122-də (62%) gənclər siyasəti var. 37 ölkədə (19%) mövcud dövlət gənclər siyasətinə yenidən baxış həyata keçirilir və ya öz dövlət gənclər siyasətinin ideya layihəsi hazırlanır. Bu arada 31 dövlətin (təxminən 16%-də) öz gənclər siyasəti yoxdur [2;s.23].

Xarici ölkələrdə gənclər siyasəti XX əsrin 1950-ci illərinin sonu - 1960-cı illərin əvvəllərində formalaşmağa başlamışdı. Onu beş mərhələyə bölə bilərik: 1. 20-ci əsrin 50-ci illəri. - "təbii paternalizm" dövrü. Dövlət və cəmiyyət mühafizəkar yanaşma nümayiş etdirir; gənc nəslin problemləri, əsasən, könüllülərin təşkil etdiyi xeyriyyə, sosial və dini xidmətlər vasitəsilə həll olunur.

2. 20-ci əsrin 60-cı illəri. - nəsillərarası qarşıdurmanı əks etdirən "Gənclik (sosial əsaslar üçün) dəhşətli təhlükədir" şüarı ilə xarakterizə olunan gənclərin neokonservativ qavrayış dövrü. Bu dövrdə gənclərin problemlərinə yönəlmiş dövlət sosial xidmətləri yaranmışdı. Onların başlıca səyləri gənclərin konkret qruplarının, xüsusən də marginal qrupların ("risk qrupuna aid olan gənclərin") problemlərinin həllinə yönəldilmişdir.

3. 70-ci illər gənclər siyasətində demokratik prinsiplərin formalaşdığı dövr idi. Bu dövrün başlıca şüarı "Gənclik (cəmiyyətin və dövlətin) böyük ümididir" fikri üzərində formalaşmışdı. Gənclərin müxtəlif kateqoriyaları üçün, o cümlədən dövlət tərəfindən göstərilən xidmətlər üçün hərtərəfli infrastruktur yaradılmışdı. Gənclərin özü isə gənclər siyasətinin təkcə obyektinə deyil, həm də subyektinə çevrilmişdir.

4. 80-ci illərin əvvəllərindən 90-cı illərin ortalarına kimi gənclərin cəmiyyətdəki yeri və rolunun qiymətləndirilməsinə "gənclik sadəcə gənclikdir" devizi əsasında demokratik yanaşma formalaşmışdı. Bu dövrdə vətəndaş cəmiyyəti institutlarının inkişafı gənclər siyasətinin tənzimləyicisi kimi dövləti sıxışdırıb çıxarmışdır. Gənclər özləri bunu formalaşdırır və həyata keçirirdilər. Dövlət və qeyri-dövlət sosial xidmətlərinin səyləri təkcə "risk qrupu" gənclərinə deyil, ilk növbədə fəal işə, təhsilə və peşəkar inkişafa yönəlmiş gənclər kateqoriyasına kömək etmək məqsədi daşıyır.

5. 90-cı illərin sonundan bu günə kimi gənclər siyasətinin həyata keçirilməsinə dünyəvi yanaşma işlənib hazırlanmışdır ki, bu da digər sosial qrupların nümayəndələri ilə birlikdə müasir dövrümüzün qlobal problemlərinin həllində müxtəlif ölkələrin və regionların gənclərinin fəal ictimailəşməsinə və səylərinin birləşdirilməsinə yönəlmişdir [5;s.47].

Beləliklə, inkişaf etmiş Qərb ölkələrində gənclərin müstəqil resurs kimi tanınması, gənclər siyasətinin dövlət fəaliyyətinin ayrıca bir sahəsi kimi ayrılması sosial-iqtisadi və siyasi problemlərin (zamanın qlobal çağırışları - əhalinin qocalması, demoqrafik problemlər, miqrasiya, ekoloji mühitin qorunması, enerji təhlükəsizliyi, mədəni təhlükəsizlik, həllində gənclərin rolunun dərk edilməsi ilə birbaşa bağlıdır.

Gənclərin əhalinin digər qruplarından fərqlənməsi onların təhsili, dövlət və ictimai yeniləşmənin məqsəd və vəzifələrini bölüşməsi və qəbul etməsi, həyat perspektivləri ilə əlaqələndirilməsi, dövrümüzün qlobal çağırışlarına cavab vermək üçün zəruri keyfiyyətlərə malik olması ilə əsaslandırılır.

Gənclərin dövlətin strateji resursu olan xüsusi kateqoriya kimi baxılmasına yanaşanda dövlətin prioritet istiqaməti kimi gənclərlə bağlı xüsusi siyasətin həyata keçirilməsini müəyyən etmək lazımdır [5;s.48-49].

Gənclər siyasəti dedikdə, cəmiyyətin və dövlətin, əhalinin müxtəlif qrup və təbəqələrinin, sosial institutların müstəqil demoqrafik qrup kimi gənclərə münasibəti, eləcə də gənclərin özünün əhalinin digər qruplarına, sosial institutlara və bütövlükdə cəmiyyətin dəyərlərinə münasibəti nəzərdə tutulur. Bu mürəkkəb, ziddiyyətli və çoxşaxəli vasitəçi

münasibətlər sferası gənclərin sosial vəziyyətini və bununla yanaşı, sosial-iqtisadi, hüquqi, siyasi vəziyyəti, müəyyən səviyyə və həyat tərzini, son nəticədə həyat keyfiyyətini, uzunmüddətli perspektivdə isə iqtisadi fəal əhalinin konturlarını və keyfiyyət parametrlərini xarakterizə edir.

Hazırda Azərbaycanda gənclər ölkənin dinamik inkişafında mühüm rol oynayır. Bu uğurların əsasında müəllifi Ümummilli Lider Heydər Əliyev olan dövlət gənclər siyasəti dayanır. Azərbaycanda dövlət gənclər siyasətinin formalaşması XX əsrin 90-cı illərində Sovet İttifaqının dağılması ilə başlamışdı. 1993-cü ilin iyununda, ölkənin böyük çətinliklər yaşadığı və vətəndaş müharibəsi astanasında olduğu bir vaxtda Heydər Əliyev xalqın təkidli tələbi ilə hakimiyyətə qayıtmışdı. Ölkəni bürümüş böhrandan çıxmaq üçün onun təşəbbüsü ilə irəli sürdüyü əsas tədbirlərdən biri də əvvəlki hakimiyyət tərəfindən lazımınca qiymətləndirilməyən və faktiki olaraq diqqətdən kənarda qalan gənclər siyasətinin həyata keçirilməsi idi [6;s.23].

Ümummilli Lider Heydər Əliyev gənclərin himayədarı olmaqla sağlam təfəkkürlü yeni nəsil yetişdirməyi dövlətin və cəmiyyətin mühüm vəzifəsi hesab edirdi [6;s.24].

O, gənclərin dövlətin və cəmiyyətin sosial-iqtisadi, ictimai-siyasi və mədəni həyatında iştirakının təmin edilməsini dövlət siyasətinin ən mühüm istiqamətlərindən biri elan edib. Bu məqsədlə 1994-cü il iyulun 26-da Azərbaycan Prezidenti Heydər Əliyevin fərmanı ilə Gənclər, İdman və Turizm Nazirliyi yaradılmışdır. 1995-ci ildə o, 1996-cı il fevralın 2-də keçirilən Azərbaycan Gənclərinin I Forumunun keçirilməsi təşəbbüsü ilə çıxış etmişdi. Bu forumda 2000-ə yaxın gənc iştirak etmişdi. Bir il sonra, 1997-ci ildə Ulu Öndər Heydər Əliyevin sərəncamı ilə forumun keçirildiyi gün Azərbaycan Gəncləri Günü elan edilmişdi [23].

1999-cu il martın 2-də Azərbaycan Gənclərinin II Forumunda Prezident Heydər Əliyev öz çıxışında dövlət orqanlarının diqqətini gənclərin problemlərinin həllinə yönəltməklə gənclərin respublikanın ictimai-siyasi həyatında daha fəal iştirakına şərait yaradılmasının zəruriliyini qeyd etmişdi. 1999-cu ildə Heydər Əliyevin imzaladığı "Dövlət gənclər siyasəti haqqında" Fərmanda təhsil, tərbiyə, sağlamlıq, intellektual və mənəvi inkişaf, hüquqların müdafiəsi, respublikanın ictimai-siyasi və mədəni həyatında iştirak, gənclərin asudə vaxtının təşkili ilə bağlı problemlərin həlli kimi geniş məsələlər öz əksini tapmışdır [22].

Sonrakı illərdə dövlət gənclər siyasətinin normativ-hüquqi bazasının təkmilləşdirilməsi və möhkəmləndirilməsi davam etdirilmişdir. Gənc Ailə Proqramı (16 fevral 1999-cu il), Vətənpərvərlik və vətəndaşlıq hissinin artırılması Proqramı (17 fevral 1999-cu il), "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında" Azərbaycan Respublikasının Qanunu (22 iyun 1999-cu il), Azərbaycan Respublikası Prezidentinin 29 iyul 1999-cu il tarixli "Vətənpərvərlik və vətəndaşlıq hissinin artırılması" proqramı, Təhsil və tərbiyə işinin təkmilləşdirilməsi və uşaq hüquqlarının müdafiəsi proqramı (22 iyun 2000-ci il), Sosial, iqtisadi və digər problemlərin həllinə, istedadlı yeniyetmələrin və istedadlı gənclərin bacarıqlarının inkişafına yönəldilmiş Dövlət Proqramı (4 avqust 2000-ci il), Azərbaycan Respublikasında 2 avqust 2000-ci il tarixdə hərbi xidmətdə olan şəxslərin işlə təmin edilməsi proqramı (9 aprel 2002-ci il) kimi mühüm sənədləri məhz Ulu Öndərin misilsiz xidmətlərinin bariz nümunəsi kimi dəyərləndirmək olar [19].

2003-cü ildə İlham Əliyevin Azərbaycan Prezidenti seçilməsi ilə ölkədə gənclər siyasətində yeni mərhələ başlamışdı. Bu gün respublika əhalisinin 66 faizini yaşı 35-ə qədər olan gənclər təşkil edir ki, onun da 14-29 yaşlıları əhalinin 30 faizini təşkil edir.

2005-ci il avqustun 30-da "Azərbaycan Gəncliyi Dövlət Proqramının (2005-2009-cu illər) təsdiq edilməsi haqqında" Sərəncam imzalanmışdır. Bu sərəncam ölkəmizin gənclərlə bağlı dövlət siyasətinin əsas istiqamətlərini müəyyənləşdirmişdir [9].

2006-cı ildə dövlət başçısının sərəncamı ilə Gənclər və İdman Nazirliyi yenidən yaradılmışdır. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2007-ci ili ölkədə "Gənclər ili" elan etmişdir. 2008-ci il oktyabrın 3-də Prezident İlham Əliyev Azərbaycan Gənclərinin V Forumunda iştirak etmişdir [23].

Son illərdə bir sıra mühüm dövlət proqramları, o cümlədən "Xüsusi istedada malik uşaqların (gənclərin) yaradıcılıq potensialının inkişafı üzrə Dövlət Proqramı" (2006-2010-cu illər); "Azərbaycan Respublikasında peşə və texniki təhsilin inkişafına dair" Dövlət Proqramı (2007-2012-ci illər); "Azərbaycan gəncliyi 2011-2015-ci illərdə" Dövlət Proqramı,

həmçinin 2007-2015-ci illər üçün nəzərdə tutulmuş "Azərbaycan gənclərinin xaricdə təhsili üzrə Dövlət Proqramı" [19] qəbul olunmuşdu. Bu proqramlar gənclər siyasətinin səmərəliliyinin artırılmasına və daha da təkmilləşdirilməsinə, istedadlı gənclərin üzə çıxarılmasına öz töhfəsini vermiş, gənclərin yaradıcılıq potensialının reallaşdırılmasına və intellektual səviyyəsinin yüksəldilməsinə, habelə onların sosial problemlərinin həllinə şərait yaratmışdır.

Dövlət qurumlarına işə qəbul edilənlərin 60%-dən çoxu gənclərdir. Bələdiyyə üzvlərinin 28 faizini və ya 4303 nəfərini gənclər təşkil edir. Onlardan 326 nəfəri bələdiyyə sədridir. Azərbaycanın 11 gənclər təşkilatı beynəlxalq təşkilatlara üzv qəbul olunmuşdu. "2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı" çərçivəsində 5000 tələbənin dünyanın nüfuzlu ali təhsil müəssisələrində təhsil almağa göndərilməsi həyata keçirilmişdi. 2015-ci ilin sonuna 3558 nəfər bu proqram üzrə təhsil almaq hüququnu əldə etmişdi [22].

"Gənclər siyasəti haqqında" Qanun Azərbaycan Respublikasında gənclər siyasətinin əsas məqsədlərini, istiqamətlərini və təşkilati-hüquqi əsaslarını müəyyən etmişdir. Qanun bu sahədə yaranan münasibətləri tənzimləyirdi. Bu Qanun "Gənclər siyasəti haqqında" Fərmana uyğun olaraq qəbul edilmiş və 2002-ci il aprelin 9-da Heydər Əliyev tərəfindən imzalanmışdır. Gənclər siyasətinin həyata keçirilməsi əsas dövlət strukturu kimi Gənclər və İdman Nazirliyinə həvalə edilmişdi [1;s.28].

"Gənclər siyasəti haqqında" Azərbaycan Respublikasının Qanununda aşağıdakı tərif verilir: gənclər siyasəti gənclərin hərtərəfli inkişafını və cəmiyyətin həyatında fəal iştirakını təmin etmək məqsədi ilə dövlət tərəfindən ictimai-siyasi, sosial-iqtisadi, təşkilati-hüquqi şərait və təminatların yaradılmasına yönəlmiş tədbirlər sistemidir [1].

Azərbaycan Respublikasında gənclər siyasətinin əsas məqsədi gənclərin fiziki, intellektual və mənəvi inkişafına şərait yaratmaq, onların bacarıq və istedadını reallaşdırmağa kömək etməkdir [1].

Qanun dövlət tərəfindən həyata keçirilən gənclər siyasətinin əsas istiqamətlərini müəyyən edir:

- Gənclərin mənəvi-əxlaqi tərbiyəsi və mədəni həyatda iştirakı;
- İstedadlı gənclərə dövlət qayğısı;
- Gənclərin sağlamlığının qorunması və fiziki inkişafı;
- Gənclərin işlə təmin olunması;
- Gənc ailələrə dövlət yardımı;
- Gənclər təşkilatlarına dövlət yardımı.

Gənclər siyasəti ilə bağlı elmi fəaliyyətləri, təhsili və tədqiqatları stimullaşdırmaq, mədəniyyətin və digər sosial sahələrin inkişaf etdirilməsi məqsədilə Azərbaycan Respublikasının Prezidenti yanında Gənclər Fondu yaradılmış, Azərbaycan Gənclər Tələbə Təşkilatları İttifaqı, "Bizim Nəsil" Gənclərin Regional İnkişafına Yardım Assosiasiyası, "Gənclərin İntellektual İnkişafına Yardım" İctimai Birliyi, Gənclər Təşkilatları Milli Şurası və s. kimi təşkilatların fəaliyyətinə köməklik göstərilmişdi [6].

Heydər Əliyev Fondunun Rusiya Federasiyasındakı nümayəndəliyinin rəhbəri Leyla Əliyevanın təşəbbüsü ilə yaradılmış Rusiyanın Azərbaycanlı Gənclər Təşkilatının (AMOR) fəal fəaliyyətini də qeyd etmək lazımdır. Hazırda Rusiyanın 70-dən çox regionunda yaşayan gəncləri birləşdirən bu təşkilat Azərbaycan mədəniyyətinin təbliği istiqamətində bir sıra layihələr həyata keçirir, Rusiya və Azərbaycan arasında mədəniyyətlərarası mübadilə üçün səmərəli və faydalı körpülər yaradır.

Xaricdə təhsil alan Azərbaycan Gənclərinin Beynəlxalq Forumu (ASAIF) getdikcə daha böyük rol oynayır. Gənclərin diaspor təşkilatlarının ümumi fəaliyyətini dəyərləndirən Prezident İlham Əliyev qeyd etmişdi: "İndi diaspor təşkilatlarımız daha da güclənib, formalaşıb və dünyanın istənilən yerində tədbirlər keçirməyə qadirdir. Televiziyadan bu hadisələrə baxanda görürük ki, orada da gənclərimiz ön sıralardadır. Yəni gənclər daim fəaldırlar və bu fəaliyyətin müsbət istiqaməti olmalıdır. Mən çox şadam ki, gənclərimiz ölkənin hərtərəfli inkişafında öz rolunu oynayır, müstəqilliyin əsaslarını möhkəmləndirir. "Gənclər vətənpərvərdirlər, vətənə bağlıdırlar, milli ruhda tərbiyə olunurlar, onlar artıq ölkəmizi gələcəkdə uğurla idarə etməyə hazırlaşmalıdırlar" [4;s.45].

Hazırda Azərbaycanda uşaq və gənclərlə işləyən, onları birləşdirən yüzdən çox qeyri-hökumət təşkilatı (QHT) var. Onların yarıdan çoxu konfederativdir, onlar Gənclər Təşkilatları Milli Şurasında birləşiblər. 2000-ci ildə Milli Şura Avropa qitəsinin ən nüfuzlu beynəlxalq qeyri-hökumət təşkilatı olan Avropa Gənclər Forumunun tamhüquqlu üzvü seçilmiş, 2002-ci ilin yanvarından BMT-nin Sosial-İqtisadi Şurasında müşahidəçi statusu almışdır. 2004-cü ildə Milli Şura İslam Konfransı Gənclər Forumunun həmtəsisçisi və tamhüquqlu üzvü olmuşdur [23].

Bakıda keçirilən gənclər siyasəti məsələlərinə dair birinci qlobal forum Azərbaycanda 20 il ərzində həyata keçirilən davamlı və səmərəli gənclər siyasətinə verilən yüksək qiymət idi [23]. Dünya gənclərinin birinci qlobal forumu böyük əhəmiyyət kəsb edirdi. Bu tədbir 1998-ci ildə gənclər və idman sahəsində dövlət siyasətinin həyata keçirilməsinə dair nazirlərin iclasından sonra ilk dəfə keçirilirdi. Forumda 165 ölkədən 700-dən çox insan iştirak etmişdi: dünyanın hər yerindən gənclərin nümayəndələri, gənclər təşkilatları, gənclər siyasətini formalaşdıran dövlət rəsmiləri, akademik dairələr və QHT-lər bu forumda dünya və Azərbaycan gənclərinin problemlərini müzakirə etmiş və sonda Yekun sənəd qəbul olunmuşdu [23].

Prezident İlham Əliyev “Azərbaycan Respublikasında 2015-2025-ci illər üçün gənclərin inkişafı strategiyası”nın təsdiq edilməsi haqqında sərəncam imzalamışdı [13]. Bu proqram uzun bir dövrü əhatə edir və gənclər siyasətinin kifayət qədər uzun müddətə planlaşdırıla biləcəyinin göstəricisidir. Bu da ölkədə sabitliyin olduğunu bir daha hamıya sübut etmişdir. Ölkə başçısının sözləri ilə desək, “Biz başa düşürük ki, 2025-ci il hələ çox uzaqdadır, lakin proqram bizə göstərir ki, gəncləri hansı gələcək gözləyir, eləcə də həm öz inkişafını, həm də rifahını, həm də Azərbaycanın rifahını təmin etmək üçün gənclərin hansı qabiliyyətlərə, bacarıqlara, biliklərə malik olması lazımdır [13].

Görülən işlərin ən mühüm nəticələrindən biri gənclər siyasəti infrastrukturunun inkişafıdır. Belə ki, 2011-ci ilin sonunadək Prezident yanında Azərbaycan Gənclər Fondu, iki il əvvəl isə Daşkəsəndə Gənclərin İnkişaf və Təhsil Mərkəzi yaradılmışdı. Bundan əlavə, bu gün ölkədə 34 Gənclər Evi fəaliyyət göstərir [2;s.23].

Bütövlükdə, fəaliyyət göstərdiyi nisbətən qısa müddət ərzində Fond 3226 layihə həyata keçirmiş, ölkədə iki yüz gənc və tələbə təşkilatı ilə işi keyfiyyətcə yeni səviyyəyə qaldırmışdır.

Təsadüfi deyil ki, gənclər dövlət orqanlarında, parlamentdə, bələdiyyələrdə, biznes strukturlarında və digər sahələrdə təmsil olunaraq cəmiyyətin ictimai-siyasi və sosial-iqtisadi inkişafına öz töhfələrini verirlər. Azərbaycanın ikinci böyük şəhəri olan Gəncə 2016-cı il Avropa Gənclər Paytaxtı seçilmişdi. Bu tədbir şəhərin qitə ilə əlaqələrini inkişaf etdirmək və gənclər üçün əlavə imkanlar yaratmaq üçün yaxşı fürsət olmuşdu. Bir il ərzində gəncəli gənclər avropalı həmyaşıdları ilə sıx əlaqələr qurmaq şansı əldə etmişdilər.

Sonda qeyd edək ki, Azərbaycan Respublikasında dövlət gənclər siyasətinin formalaşdırılması və reallaşdırılması sistemli şəkildə həyata keçirilir. Bu baxımdan ölkəmizdə dövlət gənclər siyasətinin reallaşdırılmasını bir neçə məntiqi mərhələyə bölmək mümkündür:

(1991-1993) - 1991-ci ildə “Dövlət gənclər siyasəti haqqında” qanunun qəbul edilməsinə baxmayaraq, gənclərlə bağlı heç bir tədbir görülmədiyi üçün bu mərhələni durğunluq və ya fəaliyyətsizlik dövrü adlandırmaq olar.

(1993-1999) - ikinci mərhələni dirçəliş və səfərbərlik dövrü hesab etmək olar. Məhz bu dövrdə Ümummilli Lider Heydər Əliyevin təşəbbüsü ilə gənclərin inkişafı və təşkilatlanması üçün şərait yaradılmışdır.

(1999-2003) - üçüncü mərhələdə dövlət gənclər siyasətinin qanunvericilik və normativ-hüquqi bazası formalaşdırılmışdı.

(2003-2015) - dördüncü mərhələni təşkilatlanma və institutlaşma dövrü adlandırmaq olar. Bu dövrdə konkret tədbirlər həyata keçirilmiş, dövlət və qeyri-hökumət gənclər strukturları yaradılmış və təkmilləşdirilmişdi.

2015-ci ildən sonra bu dövrü modernləşmə və strateji inkişaf dövrü hesab etmək olar. Azərbaycan Prezidenti İlham Əliyevin sərəncamı ilə “2015-2025-ci illər üçün gənclərin İnkişaf Strategiyası” təsdiq olunmuşdu [13]. Bu sənədin qəbulu dövlət gənclər siyasətinin müasirləşdirilməsinin və yeni keyfiyyət səviyyəsinə keçidinin başlanğıcı hesab oluna bilər.

Məlumdur ki, ölkə başçımızın gənclərin nümayəndələri ilə görüşləri ənənəvi xarakter almışdı və o, ildə bir neçə dəfə həyata keçirilir.

Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi gənclər siyasəti sahəsində həyata keçirilən tədbirlərin nəticələrinə əsasən hər il “Azərbaycan gəncləri” statistik məcmuəsini nəşr etdirir.

Sonda onu da qeyd etmək lazımdır ki, Azərbaycanda həyata keçirilən dövlət gənclər siyasətinin xüsusiyyətlərindən biri də ondan ibarətdir ki, gənclər siyasətinin həyata keçirilməsində təkcə dövlət strukturları deyil, həm də gənclərin özləri də yaxından iştirak edirlər.

## ƏDƏBİYYAT SİYAHISI:


1. *"Gənclər haqqında" Azərbaycan Respublikasının Qanunu və Gənclər Dövlət Proqramı (9 aprel 2002-ci il, N 297-11 Q). - Bakı: Qanun, 2007, s.28.*

2. *Azərbaycanın ictimai həyatında gənclərin rolu / A. M. Cəfərovun, E. B. İmaməliyevin redaktəsi ilə. — SPb.; Bakı: MDB iştirakçısı olan dövlətlərin Parlamentlərarası Assambleyası Şurasının Katibliyi. 2012, səh.110*

3. *Axundova E.H. Heydər Əliyev: Şəxsiyyət və zaman: 4 cilddə, Bakı: Ozan, 2007*

4. *Cəfərov N.Q. Azərbaycan: Heydər Əliyevdən İlham Əliyevə. Bakı: Çaşıoğlu, 2004*

5. *Cəfərov H.R. Azərbaycanda gənclər hərəkatının təşəkkülü və inkişafı. Bakı: Nurlan, 2008*

6. *Cəfərov H.R. Azərbaycanda gənclər hərəkatı (XX əsr). Bakı: Nurlan, 2009*

7. *Azərbaycan Respublikası Konstitusiyası. (əlavə və dəyişikliklərlə birlikdə). Bakı, 2016*

8. *Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyi (ARGİN) haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı. «Azərbaycan» qəzeti, 1994, 27 iyun*

9. *Azərbaycan gəncliyi. Dövlət Proqramı. 2005-2009-cu illər. «Azərbaycan» qəzeti, 2005, 2 sentyabr*

10. *2006-2010-cu illər xüsusi istedada malik olan uşaqların (gənclərin) yaradıcılıq potensialının inkişafı üzrə Dövlət Proqramı.*

11. *Azərbaycan Respublikasında texniki-peşə təhsilinin inkişafı üzrə Dövlət Proqramı (2007-2012-ci illər).*

12. *"Azərbaycan gəncliyi 2017-2021-ci illərdə" Dövlət Proqramı.*

13. *2015-2025-ci illərdə Azərbaycan gənclərinin İnkişaf Strategiyası"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin sərəncamı.*

14. *Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyinin fəaliyyəti haqqında arayış Azərbaycan Respublikasında Dövlət Gənclər Siyasəti. İnformasiya bülleteni (ARDGS İB). Bakı: Elm, 2001, №6*

15. *Azərbaycan Respublikasında Dövlət Gənclər Siyasəti. İnformasiya bülleteni, Bakı: Elm, 1998-2001-ci illər, №1-6*

16. *1996-2009-cu illərdə qəbul olunmuş "Azərbaycanda gənc istedadlara dövlət qayğısı haqqında" Azərbaycan Respublikası Prezidentinin Fərmanı (22.06.1996-cı il)*

17. *"Gənc istedadlar üçün xüsusi təqaüdlərin təsis edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (13.09.1997-ci il)*

18. *"Gənc ailə" dövlət proqramı (16.02.1999-cu il).*

19. *Gənclər siyasəti üzrə normativ sənədlər toplusu: qanunlar, fərmanlar, sərəncamlar və digər sənədlər. - Bakı: Gənc Hüquqşünaslar Assosiasiyası, 2009. - 373 s.3.*

20. *Бакинский рабочий, 2012, 9 октября, с.1-2.*

21. *Bakıda ilk Qlobal Gənclər Forumu keçirilir. // Azərbaycan, 2014, 29 oktyabr, s.4.*

22. *Azərbaycanın gənclər siyasəti: əsas prioritet istiqamətlər, tarixi və inkişaf perspektivləri / http://br.az/society/20130725110456946.html*

23. *http://www.un.org/youthenvoy/2014/10/first-global-forum-youth-policies-starts-baku-launch-20th-anniversary-commemorative-logo-world-programme-action-youth/*


## XÜLASƏ


"Müasir mərhələdə Azərbaycan Respublikasında dövlət gənclər siyasətinin inkişaf etdirilməsi istiqamətləri və optimallaşdırılması yolları" adlı məqaləsində müəllif göstərmişdi ki, hər bir ölkədə gənclərlə bağlı həyata keçirilmiş olan dövlət siyasətinin hansı səviyyədə olmasından asılı olaraq həmin cəmiyyət haqqında ümumi təsəvvürə sahib olunur. Bu baxımdan məhz gənclər xüsusi sosial-demoqrafik qrup kimi ölkənin gələcək tərəqqisində mühüm rol oynayırlar. Gənclərin əhalinin digər qruplarından fərqlənməsi onların təhsili, dövlət və ictimai yeniləşmənin məqsəd və vəzifələrini bölüşməsi və qəbul etməsi, həyat perspektivləri ilə əlaqələndirilməsi, dövrümüzün qlobal çağırışlarına cavab vermək üçün zəruri keyfiyyətlərə malik olması ilə əsaslandırılır. Müəllif öz məqaləsində həmçinin, gənclərlə əlaqədar aparılan siyasətə belə tərif verir ki, o, cəmiyyətin və dövlətin, əhalinin müxtəlif qrup və təbəqələrinin, sosial institutların müstəqil demoqrafik qrup kimi gənclərə münasibəti, eləcə də gənclərin özünün əhalinin digər qruplarına, sosial institutlara və bütövlükdə cəmiyyətin dəyərlərinə münasibəti nəzərdə tutulur. Bu mürəkkəb, ziddiyyətli və çoxşaxəli vasitəçi münasibətlər sferası gənclərin sosial vəziyyətini və bununla yanaşı, sosial-iqtisadi, hüquqi, siyasi vəziyyəti, müəyyən səviyyə və həyat tərzini, son nəticədə həyat keyfiyyətini, uzunmüddətli perspektivdə isə iqtisadi fəal əhalinin konturlarını və keyfiyyət parametrlərini xarakterizə edən mühüm birlikdir. Məqalənin sonunda müəllif

tərəfindən ümumiləşdirmə aparılaraq qeyd edilir ki, müasir mərhələdə Azərbaycanda gənclər ölkənin dinamik inkişafında mühüm rol oynayır. Bu uğurların əsasında müəllifi ümummilli lider Heydər Əliyev olan dövlət gənclər siyasəti dayanır. Azərbaycanda həyata keçirilən dövlət gənclər siyasətinin xüsusiyyətlərindən biri də ondan ibarətdir ki, gənclər siyasətinin həyata keçirilməsində təkcə dövlət strukturları deyil, həm də gənclərin özləri də yaxından iştirak edirlər.

**Açar sözlər:** *"Gənclər" anlayışı, dövlətin gənclər siyasəti, Ulu Öndər Heydər Əliyev, "Gənclər siyasəti haqqında" Qanun.*

**SUMMARY**

In his article "Directions for the development of state youth policy in the Republic of Azerbaijan at the modern stage and ways to optimize it", the author showed that depending on the level of state policy implemented in each country regarding youth, a general idea of that society is formed. From this point of view, it is precisely young people, as a special socio-demographic group, who play an important role in the future progress of the country. The difference between young people and other groups of the population is justified by their education, sharing and accepting the goals and objectives of state and social renewal, their connection with life prospects, and the possession of the necessary qualities to respond to the global challenges of our time. In his article, the author also defines the policy carried out regarding youth in such a way that it implies the attitude of society and the state, various groups and strata of the population, social institutions to young people as an independent demographic group, as well as the attitude of young people themselves to other groups of the population, social institutions and the values of society as a whole. This complex, contradictory and multifaceted sphere of intermediary relations is an important unity that characterizes the social situation of young people, and at the same time, the socio-economic, legal, political situation, a certain level and lifestyle, ultimately the quality of life, and in the long term, the contours and quality parameters of the economically active population. At the end of the article, the author summarizes and notes that at the modern stage, young people in Azerbaijan play an important role in the dynamic development of the country. The basis of these successes is the state youth policy, the author of which is the national leader Heydar Aliyev. One of the features of the state youth policy implemented in Azerbaijan is that not only state structures, but also young people themselves are closely involved in the implementation of youth policy.

**Keywords:** *"Youth" concept, state youth policy, National Leader Heydar Aliyev, "Law on Youth Policy".*